# Tramvay daha parka getmir...

**Şair Qabilin ötən əsrin 60-cı illərində güman etdiyi məsələ təəssüf ki, sonra reallığa çevrildi**

Oğlu Mahirin işləridi. Atası Qabilin çox məşhur şeirlərindən birini Modern.az-dakı dostlarımızın yadına salıb, onlar da Xalq şairinin bu əsərini sayta yerləşdiriblər.

*Gecə saat bir,*
*Tramvay parka gedir.*

"Tramvay parka" gedir" Xalq şairi Qabilin ən populyar əsərlərindən biridi. Şairin yaradıcılığından söhbət düşəndə "Tramvay parka" gedir şeiri həmişə xatırlanır. Xalq şairi Vaqif Səmədoğlu həmkarının bu şeirinə yüksək dəyər verib: "Mənim mənsub olduğum nəslin bir çox şairi Qabilin "Tramvay parka gedir" şeirindən çıxıb. Bu tamvayın içində gəlmişik ədəbiyyata. Bəzimiz biletli, bəzimiz biletsiz".

*Konduktor mürgü döyür*
*Tramvay parka gedir.*
*Konduktorun çənəsi*
*Boynundakı çantanın*
*qayışına toxunur,*
*Yumulu gözlərindən*
*hər şey açıq oxunur.*
*Sürücü siqaretin kötüyünü sümürür,*
*Yandakı pəncərədən-*
*Qaranlığın üzünə bir*
*parça kül üfürür.*
*Yolda bir sərxoş*
*durur dünyanın ağasıtək*
*- Xox qorxub qaçacağam,*
*kişidir bassın görək.*

Qabilin bu şeirini təhlil etmək fikrində deyiləm, ədəbiyyatşünaslar zamanında öz sözlərini deyib, bu əsəri gen-bol təhlil ediblər. Bu şeiri təkrar oxuyandan sonra Bakının tramvaylı günləri yadıma düşdü. Axı bir vaxtlar paytaxtımızın küçələrində həqiqətən də tramvaylar hərəkət edib.



İndiki gənclər buna inamasalar da. Yaşlılar isə o dövrdə çəkilən bədii filmlərdəki, kinoxronikalardakı kadrlara baxdıqca Bakının tramvaylı günlərinin xiffətini çəkirlər.

*Ötür dayanacaqlar, tramvay parka gedir.*
*Maşın tapa bilməyən sürücüyə əl edir,*
*Tramvay parka gedir.*

Tarixi rəqəmlərə inansaq, XIX əsrin sonlarında Bakı küçələrində polad relslər üzərində hərəkət edən faytonlar-"konqa" fəaliyyət göstərirmiş. O vaxtlar sənaye şəhəri kimi inkişaf etməyə başlayan Bakıda elektriklə çalışan nəqliyyat növünün tətbiqi gündəmə gəlir. Şəhər Duması 1903-cü ildə bununla bağlı qərar da çıxarır. Amma nəzərdə tutulan planı həyata keçirmək mümkün olmur. Yalnız bolşeviklərin işğalından sonra tramvay Bakı küçələrndə görünməyə başlayır, 1924-cü il fevralın 8-də isə ilk elektrik-tramvay yolu paytaxt sakinlərinin və qonaqların istifadəsinə verilir.

Ötən əsrin 70-ci illərində paytaxtımızda tramvay xətlərinin uzunluğu 102, 5 kilometr olub. Məhz həmin dövrdə bu ictimai nəqliyyat növü Bakının atributlarından birinə çevrilmişdi.

*Adamla dolu olur tramvay səhər-səhər,*
*İşə gedir camaat, işə gedir fəhlələr.*

O zaman kim bilərdi ki, gün gələcək, şəhərimizin səsli-küylü küçə və prospektləri tramvay vaqonlarına həsrət qalacaq. Tramvaylar daha parka getməyəcək. Görünür Qabilin şair fəhmi bunu hamıdan əvvəl duyubmuş. Özü də bu populyar şeirin yazıldığı 60-cı illərin əvvəllərində.

*Gün gələcək bizi də yığacaqlar bir yerə,*
*Deyəcəklər: yaraşmır tramvay bu şəhərə.*
*- Sürücülər, sizinlə qurtardıq,- deyəcəklər.*
*- Relslərin hamısını çıxardıq,- deyəcəklər.*

Vaxt gəldi, zaman yetişdi, şairin dediyi kimi, tramvayı Bakıya yaraşdırmadılar. 2004-cü ildə paytaxtdakı bütün tramvay xətləri söküldü. O vaxtdan tramvay daha parka getmir.

Son illər gözəlləşən, dəyişən və modernləşən Bakı tramvaysız qalıb. Ekoloji cəhətdən təmiz və təhlükəsiz bu nəqliyyat növünün yeri bu gün əməlli-başlı hiss olunur. Bizim bəzi səlahiyyətli şəxslərin bəyənmədiyi, köhnəlik əlaməti kimi baxdığı tramvaydan dünyanın müxtəlif ölkələrində hələ də geniş istifadə olunur. ABŞ-ın, İngiltərənin, Fransanın, Almaniyanın, Avsrtiyanın, Türkiyənin, Belçikanın, İsveçrənin, Rusiyanın meqapolislərində tramvay əvvəlki tək sərnişinlərin ixtiyarındadı.

Bakı küçələrindən tramvayı qaçaq salanlar deyəsən gec də olsa səhvlərini düzəltmək barədə düşünürlər. Rəsmi açıqlamalara görə, paytaxtın bəzi ərazilərində, xüsusi ilə Ağ Şəhərədə yenə tramvaylar görünəcək. Bu məlumatı ilk dəfə mətbuatda oxuyanda təqvimdə 2012-ci il idi, aradan dörd il ötməsinə baxmayaraq, hələ ki, tramvayları görən olmayıb.

*Gecə saat bir,*
*Tramvay parka gedir.*

Görəsən Xalq şairi Qabilin bu sözlərini bir də neçə ildən sonra təkrar edə biləcəyik?

**Etibar CƏBRAYILOĞLU**